UOT 327; 930.22
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.203

# SURİYADA VƏTƏNDAŞ MÜHARİBƏSİNİN BAŞLANMASININ REGİONUN TƏHLÜKƏSİZLİYİNƏ TƏSİRİ

**VÜSALƏ ƏLİYEVA**
*Bakı Slavyan Universitetinin Beynəlxalq münasibətlər kafedrası, tarix üzrə fəlsəfə doktoru, dosent*

*E-mail: vusala_aliyeva_2023@mail.ru*

Yaxın Şərqdə ən böyük təhlükəsizlik problemini yaradan ölkələrdən biri Suriyadır. 2011-ci ilin statistikasına görə Suriyanın demoqrafik quruluşu, etnik tərkibi belədir: ərəblər 83%, kürdlər 8%, türklər 6%, erməniər 2%, çərkəz 1%, xaricilər 1%, dini qruplara görə: sünni 74%, nusayri 12%, xristian 10%. Təhlükəsizlik qüvvələrinə nəzər salsaq, ölkənin təhlükəsizliyinin Nusayrilərin əlində olduğunu deyə bilərik [22, 255-259].

Suriyada 52 il hakimiyyətdə olan BAAS (Ərəb Sosialist Dirçəlişi Partiyası) partiyasına və ölkə prezidenti Bəşər Əsədə qarşı kütləvi iğtişaşlar 2011-ci ilin payızında açıq silahlı münaqişəyə keçdi. İlk kütləvi çıxışlar yanvarın 26-da baş verdi. Daha sonra martın 15-də Derada kütləvi aksiyalar oldu. Vəziyyət tez bir zamanda genişmiqyaslı ümummilli üsyana çevrildi.

Suriya ordusu Dera, Duma, Baniəs, Hama, Homs, Hələb, Talkalah, İdlib, Rastan, Çisr-əş-Şuqur, Deyr-əz-Zor, Zabadani və Latakiya və s. şəhərləri mühasirəyə aldı. 2011-ci ilin martında iğtişaşlar başlayan zaman 2000-ci ildə atasından hakimiyyəti təhvil alan nusayri Bəşər Əsəd güc vasitələrindən istifadə edərək üsyanları yatırmağa çalışdı. Qlobal güclər də digər çevriliş edən ölkələrdə olduğu kimi "gözlə və gör" siyasətini yürütdülər.

2011-ci ilin yayından qiyamçıların Suriya ordusuna qarşı silahlı dəstələri formalaşmağa başladı. Şiddətli qarşıdurmalar ilin sonunda daha da kəskinləşdi. Rejimin xalqa qarşı get-gedə şiddəti artırdığı üçün, orduda Nusayri olmayan orta səviyyəli komandirlər ordudan ayrılaraq xalqın tərəfinə keçdilər, Azad Suriya Ordusunun nüvəsini əmələ gətirdilər, ordunun şiddəti getdikcə artdı və ordudan ayrılanlar Azad Suriya Ordusuna qoşularaq saylarını daha da çoxaltdı. Beləcə, üsyan yenə silahlı mübarizəyə çevrildi [26].

2012-ci il aprelin 12-də barışıq elan olundu. Lakin hökumət "silahlı qruplaşmalar" tərəfindən edilən hücumlara qarşı mübarizə aparmağa hazır olduğunu elan etdi. İlk atəşkəsdən üç gün sonra Suriyaya BMT müşahidəçiləri gəldi. Mayın 8-də Xalq Şurasına seçkilər keçirildi. BAAS partiyası da seçkilərdə digər partiyalarla bərabər hüquqda iştirak etdi. Seçkilərdə BAAS partiyası tərəfindən formalaşmış "Milli birlik" bloku qələbə qazandı. Barışıq elan olunmasına baxmayaraq qarşıdurmalar davam edirdi. 19 mayda Deyr-əz-Zor şəhərində terror aktı oldu, mayın 25-də Hula şəhərində döyüş baş verdi. Münaqişənin sülh yolu ilə həllinin ilk cəhdi uğursuzluqla başa çatdı. Rəsmi səviyyədə Suriya münaqişəsi vətəndaş müharibəsi kimi qəbul olunur. 22 iyun hadisələrindən sonra münaqişədə Türkiyə də iştirak etməyə başladı. Həmin gün Suriya HMQ Turkiyənin "Fantom" F4 qırıcılarına zərbə endirdi. Bir neçə gün sonra Türkiyə təyyarələri yenidən vuruldu. 2012-ci ilin oktyabrında Suriya tərəfindən atılan mərmi Türkiyə ərazisinə düşdü. Nəticədə 5 nəfər öldü, 13 nəfər yaralandı. Buna cavab olaraq Türkiyə ordusu oktyabrın 3-dən 4-nə keçən gecə Suriya ərazisini artilleriya atəşinə tutdu. Həmin gün Türkiyə parlamenti vacib olarsa ordudan istifadə edilməsi haqqında sanksiya verdi.

2012-ci il noyabrın 11-də Qətərin paytaxtı Dohada Suriya Milli Koalisiyasının (SMK) yaradılması elan olundu. Koalisiyanın tərkibinə müxalifət qruplaşmalarından olan Suriya Milli Şurası da daxil oldu. Onun məqsədinin prezident Bəşər Əsəd əleyhinə bütün fraksiyaları birləşdirmək olduğu bildirildi. Noyabrın 12-də ABŞ-ın Dövlət Departamenti bildirdi ki, SMK-nı dəstəkləyir. Həmin gün Fars körfəzinin ərəb dövlətlərinin əməkdaşlıq şurasının üzvü olan dövlətlər, noyabrın 19-da Aİ-nin 27 üzv ölkəsinin xarici işlər nazirləri rəsmi olaraq SMK-nı Suriya xalqının qanuni nümayəndəsi kimi tanıdıqlarını bildirdilər. Hələbdə, döyüşən üsyançılar (14 sünni islamçı radikal qruplaşma) Milli koalisiyanı "sui-qəsd" hesab edərək onu tanımaqdan imtina etdilər. 2012-ci il noyabrın 13-də Fars körfəzinin ərəb dövlətlərinin əməkdaşlıq şurasının üzvü olan Səudiyyə Ərəbistanı, Bəhreyn, Qətər, Oman, BƏƏ, Küveyt koalisiyanı tanıdı.

B.Əsəd rejiminin kimyəvi silahdan istifadə etməsi ittihamlarından sonra ABŞ və müttəfiqlərinin

hərbi müdaxilə planı yenidən müzakirəyə çıxarıldı. BMT ekspertləri kimyəvi silahdan hansı tərəfin istifadə etdiyini dəqiqləşdirmədən ABŞ-ın tələbi ilə Suriyadan geri çağırılması, ABŞ və nəzarətində olan beynəlxalq KİV-lərdə B.Əsədin kimyəvi silahdan istifadə etdiyini iddia etməsi psixoloji müharibə ünsürlərindən biri idi. Bu iddiaların heç biri rəsmi olaraq təsdiq edilməsə də, ABŞ və müttəfiqləri hərbi müdaxilənin labüd olduğunu qeyd edirdi. Böyük Britaniya və İtaliyanın hərbi müdaxilədə ABŞ-ın yanında olmayacaqlarını bildirməsindən sonra ABŞ hökuməti təkbaşına bu planı uğurla tamamlaya bilməyəcəyini başa düşdü və silahlı müdaxilə üçün Konqresin qərar verməsini tələb etdi. ABŞ hökuməti Əsəd rejiminin əlində olan kimyəvi silahların nəzarətinin beynəlxalq müşahidə qrupuna veriləcəyi təqdirdə hərbi müdaxilədən imtina edə biləcəyini bildirdi. Suriyada qarışıqlığın baş verdiyi ilk vaxtlarda Türkiyə hökuməti Əsəd rejimini sərt tənqid etməsə də, sonra Əsəd rejiminə qarşı çıxaraq, silahlı müdaxilə edə biləcəyini belə, ifadə etdi. Türkiyənin Suriya ilə sərhədlərinə yaxın yaşayış mərkəzlərinə bir neçə dəfə top mərmilərinin düşməsi, Reyhanlı terror aktının törədilməsi vəziyyəti daha da gərginləşdirdi. Türkiyə hökuməti Suriyadan qaçan 1.7 milyon qaçqını qəbul edərək, onların zəruri sosial ehtiyaclarını təmin edir. Türkiyə Suriya ilə birgə sərhədlərə malikdir. Təxminən iki milyondan çox Suriya vətəndaşının qaçqın olması, terrorçu qruplaşmaların bölgədə cəmlənməsi, sələfi dini və siyasi görüşünün regionda özünə yer tutması vəziyyəti çətinləşdirən amillər idi [8].

Bu ölkədə çevriliş istəməyən regional aktorlar, məs: İran, rejimin tərəfdarı oldu, səbəb isə 1970-ci ildə ata Əsəd, BAAS partiyası ilə iqtidara gəldiyi zaman İraqdakı BAAS rejimi ilə rəqabət etdiyi üçün İraqın düşmənlərinə yaxınlaşmağa başlaması idi. 1980-88-ci illər arasında İran-İraq müharibəsində, İrana yaxınlaşdı və yaxın münasibətlər qurmağa başladılar. İran, Hamas və Hizbullah kimi təşkilatları dəstəkləyərək Yaxın Şərqdə söz sahibi olmuşdu. Bunun üçün çevriliş olduğu zaman hakimiyyətin Suriyada sayca üstünlük təşkil edən sünnilərin əlinə keçməməsi üçün, var gücü ilə çalışdı. Türkiyə və Körfəz ölkələri, çevrilişin necə nəticələnəcəyini bilmədikləri üçün ilk əvvəl "gözlə və gör" siyasətini izlədilər, lakin B.Əsəd qanuna zidd getdiyi üçün çoxluqda olan sünnilərin tərəfdarı kimi siyasətlərini davam etdirdilər. Bu siyasətə Türkiyəni vadar edən digər bir məsələ də, daha əvvəl başlatdığı Neo-Osmançılıq siyasətidir.

Yaxın Şərq regionunun, xüsusilə Suriya və İraqın təhlükəsizliyinə təsir edən ən vacib amillərdən biri də İŞİD terror təşkilatıdır. Məlumdur ki, Suriyada 4 ildir ki, daxili müharibə davam edir. Bəşər Əsəd rejiminə qarşı çıxışlar başladığı zaman ortada İŞİD adlı bir terror qrupu yox idi hələ. İraq və Suriyada İŞİD terror təşkilatı meydana çıxmamışdan əvvəl Suriyada dövlət qüvvələri tərəfindən insanların məhv edilməsi, yaşayış məntəqələrinin dağıdılmasına görə ABŞ və koalisiya qüvvələri heç bir əsaslı tədbir görmədi. İŞİD bir anda Mosulu işğal edərək Bağdad istiqamətində hərəkətə keçdiyi zaman müddətində də ABŞ və koalisiya qüvvələri buna tamaşaçı kimi yanaşdı. Yalnız İŞİD-in öz istiqamətini Suriyaya doğru çevirməsindən və Kobanini işğal təhlükəsinə atmasından sonra ABŞ və müttəfiqləri hərəkətə keçməyə başladılar. Lakin bunun bir əhəmiyyəti olmadı, vəziyyət heç də dəyişmədi. Aydındır ki, burada hər zaman olduğu kimi ABŞ öz maraqlarını düşünürdü. ABŞ və müttəfiqlərin hədəflərinin bu iki ölkəni parçalamaq olduğunu deyə bilərik. Kobani bu gün İŞİD terror qruplarından təmizlənsə də, vəziyyət gərgin olaraq qalır.

İraq-Şam İslam Dövləti (İŞİD), İraq və Suriyada fəaliyyət göstərən silahlı bir təşkilatdır. Sələfi ideologiyaya malik İŞİD İraq, Suriya, Fələstin və İordaniya torpaqlarını əhatə edən regionda şəriətin hakim olduğu dünyaya hakimlik edən xilafət qurmaq istəyirlər. Məsələni daha aydın görə bilmək üçün bu terror təşkilatınn tarixinə nəzər salaq. Təşkilat 2004-cü ildə "Tövhid və Cihad" adı altında Əbu Musa Zərkavi tərəfindən İraqda qurulub. Daha sonra Usama Bin Ladinin rəhbərliyindəki "Əl-Qaidə"yə qatılır. "Əl-Qaidə"yə qatıldıqdan sonra adını "Mesopotamiyada "Əl-Qaidə" adı ilə əvəz edir. 2006-cı ildə yayılan bir videoda Zərkavi "Mücahidun Şura"sını qurduqlarını bəyan etdi. İraqdakı Zərkavi, 7 iyun 2006-cı ildə ABŞ qüvvələrinin qurduğu əməliyyatda qətlə yetirilir. Yerinə Əbu Həmzə əl Mühacir keçir. 2006-cı ilin sonlarında "Əl-Qaidə"yə yaxın olan Əbu Ömər əl Bağdadi isə başçılıq etdiyi "İraq İslam Dövlətini" qurduqlarını açıqladı [25].

2010-cu ilin aprel ayında ABŞ və İraq qüvvələrinin apardıqları əməliyyat zamanı Əbu Həmzə əl Mühacir öldürüldü. Əbu Bəkir əl Bağdadi təşkilatın yeni lideri oldu. Əbu Bəkir əl Bağdadi son 11 il ərzində dünyanın ən güclü cihad liderinə çevrildi.

Mosulu ələ keçirdikdən sonra, Suriya və İraqda çox sayda məntəqə ələ keçirib, Livana qədər gedən İŞİD, "Əl-Qaidə"nin ən təsirli qolu kimi hətta "Əl-Qaidə"yə də rəqibdir. İŞİD-ı quran Əbubəkir əl Bağdadi, qlobal terrorizmi yeni bir səviyyəyə qaldırdı.

2011-ci ilin sonlarında Məhəmməd Colaninin başçılıq etdiyi Nusra cəbhəsi, "Əl-Qaidə"nin Suriya qolu olaraq quruldu. 9 aprel 2013-cü ildə Əbu Bəkir Bağdadiyə aid səs yazısında Nusra Cəbhəsinin İraq İslam Dövlətinin müttəqfiqi olduğu bildirildi. Həmin ildə, Bağdadi Nusra Cəhbəsi ilə İraq İslam Dövlətinin "İŞİD" adı altında birləşdiyini açıqladı.

Qısa müddət sonra Əbu Məhəmməd Colani səs yazısında İraq İslam Dövləti ilə yaxın münasibətlərə müsbət baxdığını, lakin bu iki təşkilatın bir ad altında birləşməsi fikrini rədd etdi. Həmçinin, Colani, "Əl-Qaidə" lideri Eymən Zəvahiriyə bağlılığını dilə gətirdi.

2013-cü ilin fevralında, "Əl-Qaidə", Suriyadakı İŞİD-i tanımadığını elan etdi və təşkilatın Suriyanı tərk etməsini istədi. "Əl-Qaidə" Suriyadakı təmsilçisinin Nusra Cəbhəsi olduğunu açıqladı. Nusra Cəbhəsi və İŞİD arasında bir neçə cəbhədə münaqişələr yaşandı.

Hazırda İŞİD terror təşkilatının lideri Əbu Bəkr əl-Bağdadinin postuna müvəqqəti olaraq təyinat olub və belə ki, 2015-ci ilin mart ayında koalisiya qüvvələrinin hava hücumları zamanı yaralanmış təşkilat liderini onun "sağ qolu" Əbu Ala Afri əvəz edib [18].

Onu da qeyd edək ki, Yaxın Şərqdə gəngin vəziyyətin mövcudluğunda peşmərgələr də böyük rol oynayır. 2015-ci ilin martın ayının 9-da İraqın Kərkük şəhərində peşmərgələr və turkman könüllüləri İŞİD-ə qarşı hücum həyata keçirmiş, koalisiya qüvvələrinin təyyarələri isə əməliyyatlarda onlara yardım göstərmişdilər. Peşmərgələr könüllü turkmanlarla bərabər İŞİD qüvvələrinin bir qədər geriyə çəkilməsinə nail ola bilmişdilər. Onu da qeyd edək ki, Kərkük İraqın dördüncü ən böyük şəhəridir. Şəhər təxminən 3 min əvvəl şumerlər tərəfindən inşa edilib. Hazırda Kərkükdə 1 milyon 683 min insan yaşayır, onların 30 faizi turkmanlardır. 10 mart 2015-ci il tarixində İraq Silahlı Qüvvələri əvvəlcə əl-Aləm, ardınca da Tikrit şəhərini tamamilə İŞİD-dən geri almışdır. İŞİD-in məğlubiyyətlərinin bir neçə səbəbi var. İŞİD-in ələ keçirdiyi ərazilərdə insanlığa qarşı qəddarlığına görə yaranan dünya birliyi koalisiyası bu məğlubiyyətdə həlledici rol oynayıb [1].

Son 3-4 ayda İraq siyasi hakimiyyətində və ordu quruculuğundakı dəyişikliklər, yerlərdə şiə və sünni məzhəbindən olan insanların həmrəyliyi kimi xüsusiyyətlər də bu məğlubiyyətləri reallaşdıran amillər sırasındadır. Mərkəzləri Suriya olsa da, Yaxın Şərqdə bir İslam dövləti yaratmaq məqsədi güddükləri üçün digər dövlətlərin də, beynəlxalq təhlükəsizliyini təhlükəyə atırlar.

BMT-nin regiondakı roluna baxdığımızda görürük ki, Suriyada 220 mindən çox insanın həyatını itirdiyi vətəndaş müharibəsində BMT bəzi regionlara humanitar yardım etməkdən başqa heç bir nəticə əldə etmədi. BMT Təhlükəsizlik Şurasının fikir ayrılıqları səbəbi ilə münaqişəyə son qoyacaq qərarlar qəbul edə bilməyən Şuranın 4 il ərzində qəbul etdiyi 10 qərardan 4-ü Rusiya və Çin tərəfindən qoyulan veto səbəbindən qəbul edilməyib. BMT Təhlükəsizlik Şurası məsələ ilə bağlı bir araya gəlsə də, Suriyaya qarşı qərar vermək Liviyada olduğu kimi asan olmadı, Rusiya və Çin veto qoydu. Rusiyanın Liviyada yalnız maddi marağı vardı. Suriya isə həm maddi (silah, neft müqavilələri kimi) həm də Orta Şərqdə tək hərbi baza olan Tartus bazasına görə əhəmiyyətlidir. Çin isə son zamanlarda ABŞ-nin qüvvələr balansı siyasətini yürütdüyünü, eyni zamanda "Ərəb Baharı"nın Yaxın Şərqə yeni bir qapı açacağını gördüyü üçün qərar verilmədi.

Suriyada dörd il əvvəl "azadlıq, demokratiya və insan haqları" tələbləri ilə başlayan və faciəyə çevrilən vətəndaş müharibəsi BMT-nin üç xüsusi təmsilçisini dəyişməsinə, çoxlu sayda beynəlxalq konfransın çağırılmasına və həll planları təklif edilməsinə baxmayaraq hələ də davam edir.

Bu günə qədər BMT "xidmət müddətini uzatma" mətnləri də daxil olmaqla 10 qərar barəsində razılığa gələ bilən Şura üzvləri mövzu ilə bağlı ilk qərar mətnini 14 aprel 2012-ci ildə qəbul etdi. Lakin Əsəd rejiminin Annan planına tabe olmamasına görə 21 aprel 2014-cü ildə yeni bir qərar qəbul edilərkən plana uyğun hərəkət edilməsi istənildi. Suriya üçün BMT missiyası quruldu və müşahidəçi sayı 300-ə qaldırıldı. Bu missiyanın səlahiyyət müddətinin uzadılması üçün 20 iyul 2012-ci ildə bir qərar da qəbul olundu.

BMT TŞ, Şamın Şərqi Guta regionunda Əsəd rejimi tərəfindən hazırlandığı bildirilən kimyəvi silah hücumundan sonra ABŞ-nin hərbi müdaxilə etmək niyyətinin olduğunu bildiyindən 27 sentyabr 2013-cü ildə bir qərar da qəbul etdi.

BMT Baş katibi Pan Gi-mun, Suriyadakı böhranın üstündən 1 il keçdikdən sonra 23 fevral 2012-ci ildə keçmiş BMT Katibi Kofi Annanı Ərəb Birliyi ilə BMT-nin Suriyaya xüsusi təmsilçisi olaraq təyin etdi. Kofi Annan 6 maddədən ibarət bir sülh planı hazırlayaraq 16 martda planı Suriyadakı tərəflərə və beynəlxalq ictimaiyyətə təqdim etdi. Planda ümumi olaraq qarşıdurmaların dayandırılması, mərkəzlərdən hərbi qüvvələrin geri çəkilməsi, Suriya rejiminin qanuni istəklərinə cavab verilməsi istənilirdi. Aprel ayının əvvəllərində tərəflərin uzun müzakirələr nəticəsində planı qəbul etdiklərini bəyan etmələrinə baxmayaraq, hərbi qüvvələrin yenə saxlanılması, etiraz nümayişlərinə icazə verilməməsi və rejimin ağır silahlarla vətəndaşlara qarşı hücumlarının artmasına görə plan uğursuz oldu və münaqişələr təkrar alovlandı [30].

Altı maddəlik sülh planının uğursuz olması, münaqişələrin davam etməsi səbəbindən Annan Cenevrədə ABŞ-ın dövlət katibi Hilari Klinton, Rusiya xarici işlər naziri Sergey Lavrov, BMT TŞ-nın daimi üzvlərinin təmsilçiləri və region ölkələrinin iştirakı ilə 30 iyun 2012-ci ildə "Hərəkət qrupu" konfransı öz işinə başladı. Lakin Cenevrə Konfransında keçid hökumətinin qurulması mövzusundakı razılaşmanın baş tutmaması və BMT TŞ-dakı fikir ayrılığı səbəbindən edilən səylər nəticəsiz qaldı və Annan 2 avqust 2012-ci ildə istefa verdi.

K.Annandan sonra 17 avqust BMT və Ərəb Birliyi, Əlcəzairli təcrübəli diplomat Əl-Əhdar Əl İbrahimini Suriyaya xüsusi təmsilçi vəzifəsinə təyin etdi. O "Cenevrə 2" Konfransını təşkil etdi. Amma bu konfrasda da edilən səylər öz bəhrəsini vermədi, buna görə də Əl-İbrahimi 14 may 2014-cü il BMT Baş Assambleyasında keçirdiyi mətbuat konfransında Suriya xalqına kömək edə bilməyəcəyini təəssüf hissi ilə bildirərək istefa verdi. Əl Əhdar Əl İbrahimidən sonra BMT Suriya xüsusi təmsilçiliyinə Steffan de Mistura təyin olundu. Son BMT təmsilçisi Misturanın "iğtişaşların dondurulması" planının həyata keçmə ehtimalı da çox aşağı səviyyədədir.

## NƏTİCƏ

Yaxın Şərq regionu hər zaman böyük güclərin, beynəlxalq və regional təşkilatların maraq dairəsində olmuşdur. Regionda baş verən proseslərdə, təhlükəsizlik məsələlərinin qloballaşmasında güc mərkəzlərinin taktiki-siyasi gedişlərinin təhlili prosesə daha aydın bir şəkildə nəzər salmağa imkan verir. Rusiya, ABŞ kimi ölkələrin, Avropa İttifaqının regionla bağlı siyasətləri də bu baxımdan çox əhəmiyyətlidir.

Şübhəsiz Yaxın Şərq, etnik və dini qarşıdurmaların ən gərgin olduğu region kimi öz varlığını davam etdirir, daxili və xarici təsirlər isə bu gərginlikləri daha da artırır. Problemlərlə zəngin olan Yaxın Şərqdə bütün aktorlar hakimiyyətə gələn yeni idarəçiləri tərəflərinə çəkmək, ya da dəstəklədikləri liderlərin qalib gəlməsinə çalışırlar. Hadisələrin inkişafına görə dostlar, müttəfiqlər və əlaqələr dəyişə bilər. Dəyişməyəcək tək siyasətin isə regiondakı varlığını qorumaq, üstünlüyünü region daxilində və xaricdə göstərmək, eyni zamanda enerji kartını əlində tutmaq olduğunu deyə bilərik.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Miş Nebi. Suriye 2011// Ortadoğu yıllığı. İstanbul, 2011, № 38, s 255-301*

*2. Ortadoğu'da Barış, Aktörler, Sorunlar ve Çözüm Arayışları Sempozyumu. 2014 dekabr, http://www.haberler.com/ortadogu-da-baris-aktorler-sorunlar-ve-cozum-6789845-haberi/*

*3. BM: Türkiye'deki mültecilerin sayısı yıl sonuna dek 2.5 milyonu bulabilir. 2015 aprel, http://www.hurriyet.com.tr/dunya /28845005.asp*

*4. İŞİD'in geçici lideri Ebu Ala Afri kimdir?. 2015, http://www.evrensel.net/haber/ 111033/isidin-gecici-lideri-ebu-ala-afri-kimdir*

*5. İŞİD-lə müharibənin ön cəbhəsi-Kərkükdə azərbaycanlı jurnalistin gördükləri http://www.gun.az/xeber-isid-le-muharibenin-on-cebhesi-kerkukde-azerbaycanli-jurnalistin-gordukleri-t166453.html*

*6. Serhat Erkmen. Annapolis Zirvesi Cozum Yerine Umut Uretti. www.asam.org.tr*



**Vusala Aliyeva**
***Baku Slavic University***
***Chair of International Relations,***
***PhD in history, associate professor***


**The impact of the outbreak of civil war in Syria on regional security**

**SUMMARY**


The Middle East region has always been in the sphere of interest of great powers, international and regional organizations. Analysis of the tactical and political movements of the centers of power in the

processes taking place in the region, in the globalization of security issues, allows us to look at the process more clearly. The policies of countries such as Russia, the United States, and the European Union regarding the region are also very important in this regard.

Undoubtedly, the Middle East continues to be a region of intense ethnic and religious conflicts, and internal and external influences further increase these tensions. In the Middle East, which is full of problems, all actors are trying to win over the new rulers who come to power, or to ensure that the leaders they support win. Friends, allies and relations may change depending on the development of events. We can say that the only policy that will not change is to maintain its presence in the region, to demonstrate its superiority within the region and abroad, and at the same time to hold the energy card in its hands.

**Keywords:** *Arab spring, Middle East, Syria, crisis.*

**Доц. Вусала Алиева**
***Бакинский Славянский Университет***
***Кафедра международных отношений***

**Влияние начала гражданской войны в Сирии на безопасность региона**

**РЕЗЮМЕ**

Ближневосточный регион всегда был в интересах великих держав, международных и региональных организаций. Анализ тактико-политических движений центров силы в процессах, происходящих в регионе, в глобализации вопросов безопасности, позволяет более четко взглянуть на этот процесс. В этом отношении также очень важна региональная политика таких стран, как Россия, США и Европейский Союз.

Несомненно, Ближний Восток продолжает существовать как регион наиболее напряженных этнических и религиозных конфликтов, а внутренние и внешние воздействия усиливают эту напряженность. На Ближнем Востоке, полном проблем, все игроки пытаются привлечь на свою сторону новых правителей, пришедших к власти, или добиться победы лидеров, которых они поддерживают. Друзья, союзники и отношения могут меняться по мере развития событий. Можно сказать, что единственная политика, которая не изменится, — это сохранить свое присутствие в регионе, показать свое превосходство внутри и за пределами региона и в то же время держать энергетическую карту.

**Ключевые слова:** *Арабская весна, Ближний Восток, Сирия, кризи.*